Səs.- 2018.- 23 may.- S.7

www.sesqazeti.az

facebook Ses Media Holding





# “Azərbaycan Xalq Cümhuriyyəti dövründə aqrar islahatlar” mövzusunda elmi-praktiki seminar keçirilib

***Dünən AMEA-nın əsas binasında “Azərbaycan Xalq Cümhuriyyəti dövründə aqrar islahatlar” mövzusunda elmi-praktiki seminar keçirilib. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan tədbir AMEA-nın Qafqazşünaslıq, Torpaqşünaslıq və Aqrokimya institutları və Alimlər Evinin birgə təşkilatçılığı ilə reallaşıb.***

Tədbirdə Alimlər Evinin müdiri, tarix üzrə fəlsəfə doktoru Nuridə Quliyeva çıxış edərək, bildirib ki, 1918-ci ildə, ilk dəfə olaraq, müsəlman Şərqində Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Çox böyük siyasi və hərbi təzyiqlərə baxmayaraq, Azərbaycanın vətənpərvər oğulları hesabına müstəqillik elan olundu. Müasir müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir”.

Genetik Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Zeynal Əkpərov çıxış edərək, Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın qədim dövlətçilik tarixinin şanlı səhifələrindən olduğunu diqqətə çatdırıb. AXC və müasir Azərbaycanın oxşar və fərqli cəhətlərindən danışan alim Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müstəqil respublikamızda aqrar sahənin inkişafı ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verib. Tədbirdə Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlı “Müsəlman Şəqinin ilk Cümhuriyyəti” mövzusunda məruzə ilə çıxış edərək, bildirib ki, Şərqdə ilk demokratik respublika olan AXC-nin yaranması xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi idi.

Tədbirdə İqtisadiyyat İnstitutunun əməkdaşı, iqtisadiyyat üzrə fəlsəfə doktoru Seyfəddin Səməndərovun “Azərbaycan Xalq Cümhuriyyəti dövründə aqrar islahatlar haqqında”, AMEA-nın aqrar məsələlər üzrə müşaviri, akademik Qərib Məmmədov “Heydər Əliyevin aqrar siyasəti” mövzusunda məruzələrlə çıxış edərək, AXC-nin yaranması və qurucuları, 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın dövlət müstəqilliyinin elan olunması, “İstiqlal bəyannaməsi”nin qəbul edilməsi və s. ətrafında danışıblar.

Çıxışlarda qeyd olunub ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı, bu məqsədlə aqrar sahədə həyata keçirilən islahatlar, xüsusən, onun tərkib hissəsi olan torpaq islahatlarının aparılması, bu istiqamətdə qazanılan uğurlar, bilavasitə Dahi Siyasi Xadim Heydər Əliyevin tarixi xidmətləri ilə bağlıdır. Hazırda Ümummilli Lider Heydər Əliyevin aqrar siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və uğurla həyata keçirilir. Kənd təsərrüfatı məhsulları istehsalı ildən-ilə çoxalır, aqrar bölmənin dinamik inkişafı təmin olunur və regionların sosial-iqtisadi inkişafı məsələlərinə dair dövlət proqramları qəbul edilərək, yerinə yetirilir. Mövzu ilə bağlı digər çıxış edənlər AXC dövrünün daha dərindən öyrənilərək, gələcək nəsillərə çatdırılmasının zəruriliyini qeyd ediblər.

*Nəzakət ƏLƏDDİNQIZI*